## BİR QOŞUN ƏZRAYIL

Elə bilirdim ki, cənab Əzrayıl
Təkdir,
        can alsa da, hər bahar, hər qış...
Yenidənqırmada, millətim, ayıl!
Baş sədr
Əzrayıl qoşun saxlarmış.

Başlar dəbilqəli,
        gözlər xumarlı -

Ağaclar, divarlar güllə yarası.

Cibində hökmü var - ölüm qərarlı,

Fərmanla verilib millətin yası...

Dünən o fərmanla "sağ ol", "mükafat",

Adım ölkə-ölkə gəzdi dünyanı,

... Qatır quşqununa bağlandı Qırat,

Yurduma boyandı xalqımın qanı.

Bir qoşun Əzrayıl...
        Ay allah!
                Aman!!!
Sən gəl öz yolundan dönmə, ilahi.
Bu başkəsənlərin yanında, inan,
O tənha Əzrayıl dahiymiş,
                        dahi!
Gərək namaz qılaq ətəyində biz,
Bir heykəl ucaldaq adına bu il.
Üstündə yazaq ki... nəsillərimiz
Sənə minnətdardır, canab Əzrayıl!

Sənə minnətdarıq yaşayırıqsa,
Qocaman adımı, ulu dilimi
Uca babaların qeyrəti kimi
Nəsildən-nəsilə daşıyırıqsa!

Bağışla, hərdən bir coşub, tələsib
Səni qarğımışıq, yamanlamışıq...
Şairlər
        Şerində yolunıı kəsib,

Lənətlər yağdırıb sazında aşıq.

Axı, bilməmişik qırğınlar qusar
Bir parça kağızda bir imza-qərar?!
Nə qocaya güzəşt,
                nə uşağa rəhm,
Batar qan gölündə
                bir xalq,
                        bir aləm....
Bağışla, cənab Əzrayıl.

***1990***